# LAÇIN HƏSRƏTLİ ŞAİR

## (Xuraman Camalqızının yaradıcılığı haqqında qeydlər)



**Hər bir insanın həyata, cəmiyyətə aid görüşləri, özü və başqaları haqqında arzu və niyyətləri, ümidləri özünəməxsus bir istiqamətdə intişar tapır. Lakin istedadlı insanı fərqləndirən başlıca amil, onun həyatda, ümumən insanlıq üçün dəyəri, əhəmiyyətli cəhətləri, bariz əlamətləri görə bilməsində, sənət dili ilə cilalayaraq, onun fəlsəfi mahiyyətini gözəlliyi və ülviliyi ilə kəşf etməsindədir.**

İstedad uca Tanrının insan övladına bəxş etdiyi ən dəyərli mənəvi sərvətidir. İstedadlı insan həvəs göstərdiyi sahədə özünəməxsus düşüncə və fikirlərlə həmişə seçilir. Seçilmək xüsusiyyətləri istedadın təbiətinə xas olan önəmli cəhətlərin inikasıdır. Xalqımız istedad sarıdan heç vaxt korluq çəkməyib.

Ömrünü sözə bağlayan, onunla təsəlli tapan şairlərdən biri də Xuraman Camalqızıdır. Laçında dünyaya gəlib. Ömrünün mənalı günlərini Laçında yaşayıb. İndi Laçın həsrətiylə yazıb-yaradır. O, artıq bir neçə kitab müəllifidir.

Xuraman xanımın şeirlərinin lirik qəhrəmanı vətən, yurd həsrətiylə yaşayan insanların bədii obrazıdır. Düşmən tapdağında qalan Laçının həsrəti X.Camalqızının şeirlərində poetik səmimiyyətlə ehtiva olunur. İstedadlı şairin "Laçına sarı" şeiri də yurd ağrısının məxsusi təqdimatında poetik dəstxəttin özəlliyi, duyğuların bədii təravəti yaddaqalan və təsirlidir.

***Günəşin şəfəqi girdi qoluma,***<br>
***Eşitdi gedirəm Laçına sarı.***<br>
***Parlayan nurunu saldı yoluma,***<br>
***Eşitdi gedirəm Laçına sarı.***

Sözün təbiətinə xas olan keyfiyyətlər çeşid-çeşiddir. Bədii sözün mahiyyəti daha təravətli və çoxmənalıdır. Bədii söz dərin ictimai mənası, əhatəli və güclü realizmi, estetik keyfiyyətləri ilə dolğun məzmun kəsb edir. Bu mənada bədii təfəkkürün, ədəbi yaradıcılığın yolu mürəkkəb mündəricəsi ilə seçilir. Yalnız əhəmiyyətli mövzunun qələmə alınması əsərin ədəbi uğuruna zəmanət verə bilməz. Əsl sənətin gücü dəyərli ideyanın, böyük fikrin obrazlı ehtivasında, təravətli təcəssümündədir. Xuraman Camalqızının şeirlərinin lirik qəhrəmanı müşahidə qabiliyyəti ilə fərqlənir. Onun fərdi poetik siması təkcə yazdığı şeirlərin üslub xüsusiyyətlərində deyil, həm də hadisələrə yanaşmasında, onları seçməsində və dəyərləndirməsində, lirik "mən"in əhval-ruhiyyəsini təbii və səmimi poetik boyalarla canlandırmasındadır. Şairin lirik qəhrəmanı həssas müşahidə qabiliyyətilə həmin proseslərdə fəal iştirak edir. Onun poeziyasında yurd sevgisi, vətənsevərlik, el-oba məhəbbəti, milli özünüdərk və yaddaşa qayıdış duyğusu, böyük önəm daşıyır. Şairin vətən ətirli şeirlərində Qarabağ ağrısı, yurd həsrəti məxsusi bədii detallarla əks olunur.

"Salamat qal demədim ki, daglara" şeirinin misralarında bu fikrin poetik ehtivası diqqət cəlb edir:

***Elə vaxtdır, dağlar susub dururdu,***<br>
***İnsan seli yarı yolda yoruldu.***<br>
***Dönüb baxdım, sanki dilim qurudu,***<br>
***Salamat qal demədim ki, dağlara.***

Poeziya aləmində elə şairlər vardır ki, onların istedadının mayası xalq təfəkkürünün zənginliyindən qaynaqlanaraq, insanın arzusunu, ümidini, bütövlükdə mənəvi dünyasını rəvan, səmimi və aydın əks etməsindədir. Xuraman Camalqızı belə şairlərdəndir. "Durna ömrü yazıldı" şeiri öz poetik ovqatı ilə seçilir.

***Padşahların cıqqasında teliniz,***<br>
***Xınalıydı ayağınız, əliniz,***<br>
***Bir gün dönün qoy sevinsin eliniz,***<br>
***Taleyinə durna ömrü yazıldı.***

Onun şeirlərində əxlaqi-mənəvi mövzular lirik qəhrəmanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini əks etdirməklə yanaşı, həmçinin şeirin estetik prinsiplərini də əyaniləşdirir.

Lirik qəhrəmanın məhəbbət, sevgi axtarışları, onun imtahanlardan. emosional sarsıntılardan keçən və möhkəmlənən insani keyfiyyətlərinin təsdiqini, həm də şeirlərin məzmun və mündəricəsini təşkil edir.

Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır. Xuraman xanımın sevgi ətirli şeirləri öz təravəti və səmimi əhval-ruhiyyəsi ilə diqqət çəkir. "Gecikdi" şeiri bu baxımdan səciyyəvidir.

***Nərgizlərim güneylərdə saralır,***<br>
***Dəstə tutub bağlayanım gecikdi.***<br>
***Ruhum ölüb, xəbərim yox özümdən,***<br>
***Mənimçün yas saxlayanım gecikdi.***

Xuraman Camalqızının şeirlərində milli kolorit özünəməxsus təqdimatına görə maraqla qarşılanır. Bəllidir ki, şeirimizdə qoşma janrı həmişə öz xəlqiliyini və müasirliyini qorumuşdur. Bu janrdakı şirinlik, axıcılıq, səmimiyyət və sadəlik məzmunun dolğunluğuna dəlalət edərək, həmişə önəm kəsb edib.

Şair klassik qoşmanın və gəraylının ən yaxşı xüsusiyyətlərindən, məzmun vəhdətindən, obrazlılıqdan məntiqi ardıcıllıqdan, dil və ifadə oynaqlığından məharətlə istifadə edir. Xuraman xanım dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən ustalıqla bəhrələnərək, mövzunun bədii həllini, poetik ümumiləşdirməni məxsusi ovqatda təqdim edə bilir. Bu baxımdan şairin təravətli misralarına diqqət edək:

***Hər qayanın, hər daşının xətri var,***<br>
***Çiçəklərin, çəmənlərin ətri var,***<br>
***Yazılmamış dastanların sətri var,***<br>
***Bir gün dağlar üstümüzə gələcək.***

Gəraylı lakonikdir, yığcamdır, şairi sözə məsuliyyətlə yanaşmağa, sözə qənaət etməyə məcbur edir. İstedadlı şair qələmində gəraylı mənalı, ahəngdar musiqiyə, gözəl nəğməyə çevrilir. Ağrı dolu olsa da…

Xuraman xanımın poeziyasının özəl və ümdə xüsusiyyətlərindən ən baslıcası odur ki, müəllif ənənəvi janrın elementlərini qoruyur.

***Sarsılmasın əzəmətin,***<br>
***Əksilməsin kəramətin,***<br>
***Heç solmasın təravətin,***<br>
***Əsirlikdə qalan dağlar.***

Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır. Unutmaq lazım deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən başlıca amillərdən ən önəmlisi səmimiyyətdir.

Bu mənada Xuraman xanımın yaradıcılığı öz səmimi poetikası ilə maraq doğurur.

Onun şeirdən-şeirə püxtələşməsi, yaradıcılığındakı forma və məzmun əlvanlığı, poetik imkanlarının getdikcə zənginləşməsi diqqətdən yayınmır.

Xuraman Camalqızının yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, yurdsevərliyi, fəallığı mühüm önəm daşıyır.

Onun poetik nümunələrində təqdim olunan haqq-ədalət sevgisi, vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları, həmçinin Qarabağ ağrısı bütövlükdə onun vətəndaş şair obrazının ehtivasıdır.

**Ona yaradıcılıq uğurları arzulayıram!**

**Balayar SADİQ**